*Stepanakert yaxınlığında yerləşən və Qarabağın rəmzi sayılan "Tatik Papik" ("Baba və nənə") abidəsi.*

*Mənbə: Lorens Broers*

# Qarabağ ermənisinin mövqeyi

## Geğam Bağdasaryan

"Nə savaş, nə sülh" vəziyyəti və bir tərəfdən Azərbaycan, digər tərəfdən isə Ermənistan və Dağlıq Qarabağ Respublikası (DQR) arasında rəsmi münasibətlərin olmaması münaqişəyə qatılmış bütün dövlətlərin və siyasi subyektlərin demokratik inkişafı üçün mühüm əngəllər yaradır. Son illər Azərbaycan rəhbərliyi münaqişənin güc yolu ilə həll edilməsinin mümkünlüyü barədə getdikcə daha kəskin bəyanatlarla çıxış etməkdədir. Ermənistan və Dağlıq Qarabağ əhalisi, elə görünür ki, artıq belə təhdidlərə alışıb və müharibənin yenidən başlama ehtimalını qəbul edir.

## Qarabağ ermənilərinin tələbləri

DQR-in rəsmi mövqeyi üç təməl prinsipə əsaslanır. Birincisi - münaqişənin bir tərəfinin digər tərəfinə tabeçiliyi olmamalıdır, yəni ki, bu halda Azərbaycanla DQR arasında şaquli münasibətlər istisna edilir. İkincisi - DQR-in anklav vəziyyəti istisna edilir: qarabağlıların ətraf aləmlə qurudan keçən yol vasitəsilə əlaqəsi olmalıdır. Üçüncüsü - təhlükəsizlik zəmanətləri. Bu zəmanətlərin dərəcəsini DQR rəhbərliyi və xalqı müəyyən etməlidir. DQR ətrafındakı (erməni mənbələrində "təhlükəsizlik zolağı" adlanan) ərazilərin müqəddəratı məsələsi isə danışıqlar mövzusudur. Ümumiyyətlə, bu prinsiplər DQR-in keçmiş prezidenti Robert Koçaryan 1998-ci ildə Ermənistan prezidenti olduqdan sonra rəsmi Yerevanın da mövqeyinə çevrildi.

DQR hakimiyyəti hərbi əməliyyatlar nəticəsində Qarabağı tərk etmiş azərbaycanlı əhalinin qayıtması fikrini tamamilə istisna etmir, lakin hesab edir ki, bu məsələ erməni qaçqınlarının Azərbaycana dönüşü məsələsi ilə bağlı şəkildə həll edilməlidir. Bununla belə, 2005-ci ilin aprelində DQR-in xarici işlər naziri Arman Melikyan Qarabağa qayıdan hər bir azərbaycanlıya tam vətəndaşlıq hüququ verən vətəndaşlıq haqqında qanunun qəbul edilməsini elan etmişdir, eyni zamanda azərbaycanlılara milli azlıq kimi müxtəlif mədəni hüquqların verilməsi də nəzərdə tutulmuşdur.

Stepanakertin mövqeyinə görə, Azərbaycanın DQR rəhbərliyi ilə hər hansı birbaşa əlaqələrdən imtina etməsi, DQR-lə bağlı bütün prosesləri boykot etməsi və Ermənistanı işğalçı qismində təqdim etmək cəhdləri qeyri-konstruktiv və pozucu xarakter daşıyır. Azərbaycanın Qarabağı təcrid etmək və onun əhalisini iqtisadi və humanitar böhrana sürükləmək cəhdi Qarabağ ermənilərinin hüquqlarının pozulması deməkdir və onların öz vətənlərini atıb getməyə məcbur etmək cəhdi kimi qiymətləndirilir. Stepanakert rəhbərliyi əmindir ki,

Geğam Bağdasaryan Stepanakert mətbuat klubunun yaradıcılarından biri və hazırkı direktorudur. O, eyni zamanda "Demo" müstəqil qəzetinin baş redaktorudur. 1992-93-cü illərdə Dağlıq Qarabağ Ali Sovetinin mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışmışdır. Dağlıq Qarabağ Respublikası parlamentinin deputatıdır.



yalnız DQR-in danışıqlar prosesinə tam qatıldığından sonra nəticə əldə etmək olar. Çünki məhz Qarabağ hökuməti Azərbaycan üçün əsas maraq kəsb edən ərazi və məcburi köçkünlər məsələsi üzrə qərarlar qəbul etmək iqtidarındadır. Qarabağ ermənilərinin fikrincə, Azərbaycanın real vəziyyəti aydın qiymətləndirə bilməməsi münaqişənin nizamlanması prosesində irəliləyişin əldə edilməsi üçün ən ciddi maneədir. Azərbaycan prezidenti İlham Əliyevin bəyanatları bu təəssüratı daha da gücləndirir: bu bəyanatlarda qeyd edilir ki, Azərbaycanın gedə biləcəyi maksimal güzəşt münaqişənin qeyri-zorakı həll yollarına sadiq qalmasıdır.

## Yerevanla Stepanakert arasında münasibətlər

DQR-in sülh prosesində iştirakına əngəl yaradan yalnız Azərbaycan deyil, həmçinin Ermənistandır. Stepanakert adətən diplomatik surətdə bildirir ki, Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri "lazımınca nəzərə alınır". Lakin bu bəyanatlarda danışıqların belə formatından açıq narazılıq görünür. Dağlıq Qarabağın özündə isə, cəmiyyət Qarabağın sülh prosesindən təcrid edilməsinə getdikcə daha çox etiraz edir. Çoxları Qarabağ probleminin nizamlanması hüququnun Ermənistan tərəfindən tamamilə ələ keçirilməsini yolverilməz hesab edir. Ermənistanın ünvanına yalnız Qarabağ ermənilərinin təhlükəsizliyi zamini kimi çıxış etmək çağırışları səslənir. Bütün bunlar Qarabağ probleminin çözülməsi məsələsində iki erməni dövlətinin hüquq və vəzifələrinə dair mübahisələrin qalxmasına səbəb olur.

Status məsələsi Qarabağ erməniləri üçün ən mühüm məsələdir. Qarabağ Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk Qrupunun təklif etdiyi "mərhələli" nizamlama variantını məhz status məsələsinin sonraya keçirilməsinə görə rədd etmişdir. Bununla belə Qarabağın özündə də problemə müxtəlif baxışlar mövcuddur; ictimai rəy sorğularına əsasən, əhali Ermənistanla ittifaqın tərəfində olanlara və müstəqilliyi dəstəkləyənlərə bölünüb (sonuncular cüzi üstünlük təşkil edirlər). Hər halda DQR rəhbərliyinin əslində Qarabağın dövlət işi olan məsələlərə qarışmaması Qarabağ erməniləri arasında daha da anlaşılmazlıq yaradır.

Ermənistanın həm hökuməti, həm də cəmiyyətində DQR-in müstəqil gələcəyinə şübhə edərək, bütöv erməni dövlətinə üstünlük verilir. Belə münasibəti Ermənistan rəhbərliyinin Qarabağ siyasi elitasının müəyyən edilməsində həlledici rol oynaması ilə izah etmək olar. Lakin bu təsir qarşılıqlıdır: müharibə bitdikdən sonra "Qarabağ amili" Ermənistanın daxili siyasətində müəyyənedicidir, bu vəziyyəti də Ermənistanın nə rəhbərliyi, nə də cəmiyyəti dana bilməz. Belə mürəkkəb münasibətlər - Ermənistan tərəfinin Qarabağ rəhbərliyinə təsiri və Qarabağ amilinin Ermənistanın daxili siyasətində həlledici rolu - indiyə kimi açılmayan düyün bağlayaraq hazırkı çıxılmaz vəziyyəti yaratmışdır.

## Cəmiyyət yoxsa elita?

Belə vəziyyətdən necə çıxmaq olar? Tez-tez eşitmək olar ki, əgər elitalar güzəştə getməyə hazırdırlarsa, cəmiyyətlər buna hazır deyillər. Bu yanlış fikir geniş yayılmışdır: Qarabağ sülh prosesinin ən vacib qüsurlarından biri də cəmiyyətin münaqişədəki rolunun və elitanın cəmiyyətdə "güzəştə hazır olmamaq" vəziyyətinin saxlanılmasında rolunun yetərincə qiymətləndirilməməsidir. Bugünkü şəraitdə iki cəmiyyət (DQR və Azərbaycan) arasında qarşılıqlı əlaqələrin inkişafı sülh prosesində irəliləyişin əldə edilməsi üçün zəruri olan etimadın artırılması üçün xüsusilə vacibdir.

Vasitəçilər əslində qarşılaşdıqları məsələnin son dərəcə mühüm olan bu məqamına diqqət yetirmirlər. Digər tərəfdən sevindirici haldır ki, cəmiyyətlərin özündə bu məsələyə daha ciddi yanaşırlar. Qarabağ siyasətçisi, "Nə etməli" qəzetinin redaktoru Murad Petrosyanın yazısından bir sitat gətirmək istərdik:

"Əgər ictimai şüurda köklü dəyişikliklər etməyib sülh binasını ucaltmağa başlayacaqlarsa (üçüncü tərəflərin fəal müəllifliyi ilə), bu binanın damı örtülmüş olsun belə, gec-tez onu Fələstin sülhünün aqibəti gözləyir... Ermənilər üçün həqiqi sülhün açarı azərbaycanlıların hakimiyyətdə olan elitasında yox, ictimai şüurundadır; eləcə də azərbaycanlılar üçün bu açar ermənilərin ictimai şüurunda gizlənib... Danışıqlar prosesində müvəffəqiyyətə aparan yol cəmiyyətlərin mənəvi-ruhi sağlamlaşmasından keçir."

Kənardan elə görünə bilər ki, Azərbaycan cəmiyyəti barışığa hazır deyil, lakin bu baxış Azərbaycanda ictimai rəyi deyil, siyasi dairələrin mövqeyini əks etdirir. Azərbaycanda "gizli" ictimai rəyin olmasında bir neçə il öncə beynəlxalq layihə çərçivəsində Azərbaycana səfər etmiş bizim bir qrup Qarabağ jurnalistləri əmin olmuşlar. Mühit çox gərgin idi. Bunu gəlişimiz günü çıxan qəzet başlıqlarından da görmək olardı: "Erməni terrorçuları Bakıdadır" və s. Biz xahiş etdik ki, bizə sadə vətəndaşlarla, adi insanlarla görüşmək üçün imkan yaratsınlar. Danışığımız belə oldu: mərkəzi küçələrin birinə çıxıb qabağımıza çıxan ilk 10-12 nəfərlə söhbət edək. Uzun götür-qoydan sonra mühafizəçilərimiz bizə belə imkanı yaratdılar. Nəticədə on nəfərdən doqquzu bizə kifayət qədər mehribanlıqla münasibət göstərdi, sakitcəsinə münaqişə və öz problemləri haqqında danışdı. On nəfərdən yalnız biri bizə divan tutmaqla hədələdi.

Qarabağ münaqişəsinin və sülh prosesinin qərəzsiz işıqlandırılmasında, "düşmən obrazının" silinməsində KİV mühüm rol oynaya bilər. Buna baxmayaraq, qaçılmaz kompromislər üçün zəmin yaratmaq və ictimai rəyə təsir göstərmək üçün hökumətlərin bütün imkanları olsa da, onlar ehtiyat edirlər ki, daha güclü vətəndaş cəmiyyəti və KİV "gizli" (yəni, həqiqi) ictimai rəyi siyasi dairələrə qarşı qoya bilərlər. Beləliklə, elitalar öz təbliğat müharibələrini davam edirlər, buna əyani sübut Azərbaycanın kütləvi informasiya vasitələrinin tutduğu mövqedir. Aparıcı KİV, xüsusilə də televiziya, dövlətin nəzarəti altındadır (Ermənistanda olduğu kimi) və ictimai rəy adı altında maskalanaraq əslində hakim elitanın mövqelərinin carçısı kimi xidmət edir. Bu yaxınlara qədər Ermənistan və Qarabağda KİV əks tərəfin təbliğat təzyiqinə müqavimət göstərirdi, lakin müəyyən əlamətlər işarə edir ki, erməni KİV-i tədricən söz müharibəsinə qatılır. 2004-cü ildə erməni zabitinin azərbaycanlı həmkarı tərəfindən vəhşicəsinə öldürülməsinə reaksiya verən bəzi erməni kütləvi informasiya vasitələrinin iki xalqın "genetik uyğunsuzluğu" barəsində verdiyi bəyanatlarından bunu hiss etmək mümkün idi. Qarabağ kütləvi informasiya vasitələrində vəziyyət dəyişməyib, lakin hökumət yerli jurnalistləri onların azərbaycanlı həmkarlarının durmadan "müharibə təbillərində" çaldıqları bir zamanda pasifist meyllərinə üstünlük verməkdə günahlandırır.

## Siyasi inkişaf yolları

Bugünkü durğunluqdan çıxış demokratikləşmədədir, bu amil indiyə kimi vasitəçilərin təşəbbüslərində kifayət qədər qiymətləndirilməmişdir. Gürcüstan, Ukrayna və Qırğızıstandakı hadisələr post-sovet cəmiyyətlərinin inqilab potensialını üzə çıxartdı. Lakin Qarabağ kimi tanınmayan dövlət üçün təkamül və sarsıntısız inkişaf yolu daha məqsədəuyğundur.

Müxalifətin 2004-cü ildə yerli hakimiyyət orqanlarına keçirilmiş seçkilərdəki müvəffəqiyyətindən sonra, onlar bu nailiyyəti 2005-ci ilin parlament seçkilərində gücləndirməyə hazırlaşırdılar. Lakin tarixi şans əldən verildi və müxalifət tam məğlubiyyətlə üzləşməli oldu. Müxalifət nümayəndələri xüsusilə hakimiyyətin inzibati resurslardan sui-istifadə etməsini qeyd edərək seçkilərin tənqidi ilə çıxış etsələr də, xarici müşahidəçilərin böyük əksəriyyəti (onların sayı 130 nəfərə qədər idi) seçkilərə yüksək qiymət verdilər və bəyan etdilər ki, bu seçkilər Ermənistan və Azərbaycanda keçirilmiş eyni tipli seçkilərdən qat-qat üstün idi. Bu qiymət başlıca olaraq kütləvi saxtalaşdırmaların və seçkilərdən öncə və sonrakı mərhələlərdə ictimai iğtişaşların yer almadığından irəli gəlirdi. Qarabağ sakinlərinin çoxları Ermənistan və Azərbaycanla aparılan bu müqayisəni qəbul etmirlər və hesab edirlər ki, son seçkilər Qarabağın siyasi təkamülündə durğunluğu güman edən beynəlxalq standartlar və inkişaf etmiş Qərb ölkələrinin təcrübəsi əsasında qiymətləndirilməlidir.

Seçkilər münaqişənin həllinə təsir göstərirmi və bu iki amil bir-biri ilə nə dərəcədə bağlıdır - bu sual sülh nizamlanması prosesi üçün ən vacib suallardan biridir. Əksər Qarabağ erməniləri yeganə xilas yolunu və hüquqlarının qorunmasını demokratiyada görürlər. Digər tərəfdən demokratikləşmə ictimaiyyətə sülh prosesində daha maneəsiz iştirak etməyə imkan verir. Hazırda Qarabağ cəmiyyəti bu prosesin məzmunu haqqında çox məhdud məlumata malikdir və bu prosesin ətrafında aparılan debatlardan kənarda qalıb. Yalnız demokratik dəyişikliklərin nəticəsində cəmiyyət müxtəlif sülh təşəbbüslərinin konkret məqamları barəsində daha məlumatlı ola bilər, öz ehtiyacları və ehtiyatlarını dəqiq ifadə edər və, ən əsası, Azərbaycan cəmiyyəti ilə hakim elitalarla məhdudlaşmayan vətəndaş dialoqu qurmaq imkanını əldə edər.